ədalət.-2017.-6 may.-S.3

# ÇİÇƏKLƏNƏN AZƏRBAYCANIN ƏBƏDİYAŞAR OĞLU



**Tariximizin şanlı səhifələrindən söz düşəndə təbii ki, ilk öncə Ulu Öndərimizin, Ümummilli liderimizin həyat yolu gözlərimizin önünə gəlir. Bu heç də təsadüfi deyil. Və bu təsadüfi olmayan böyük həqiqətin içərisində dünya şöhrətli bir İNSANın xalqına həsr etdiyi ömür yolu var. Bu elə bir yoldur ki, onu ləpir-ləpir izlədikcə xalqa, dövlətə, millətə bağlılığın, xalqa, dövlət, millətə xidmətin salnaməsi yaranır. Məhz bu mənada mən hər dəfə ümummilli liderimizlə bağlı xatirələrimi, onun rəhbərliyi altında çalışdığım zamanları xatırlayıb bir qürur hissi keçirirəm. Elə bir qürur hissi ki, vətənini sevən insanlara nəsib ola bilər. Etiraf edim ki, həmin qürur hissini də mənə məhz xalqımızın sönməyən günəşi olan Heydər Əlirza oğlu Əliyev bəxş edibdir.**

Bu gün həm ötən əsrin Heydər Əliyev dövrünün, həm də müstəqillik uğrunda mücadiləmizin Heydər Əliyev zamanı bir-birinə bağlayanda yaranan mənzərə özü-özlüyündə çox şeylər deyir, çox məqamlar xatırladır. Təsəvvür edin ki, məhz Heydər Əliyev cənabları Azərbaycanın Kommunist partiyasının 1-ci katibi kimi fəaliyyətə başladığı gündən sovet respublikaları içərisində öz boy artımını göstərməyə başladı. Doğrudur, respublika rəhbəri olmamışdan öncə də çalışdığı Təhlükəsizlik Komitəsində Heydər Əliyev cənabları Azərbaycan aydınlarının qorunması üçün milli təfəkkürlü insanların sıxışdırılmasının qarşısını almaq üçün mühüm addımlar atmışdı, qətiyyətli qərarlar qəbul etmişdi. Məhz həmin o proseslərin özündə artıq xalqımızın işıqlı insanları Heydər Əliyevin timsalında bir haminin, bir xilaskarın yetişdiyini görürdülər. Zaman özü bunu bir daha təsdiq etdi.

**Heydər Əlirza oğlu Əliyev Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi illərdə ölkənin kənd təsərrüfatı, sənayesi, mədəniyyəti, təhsili, idmanı özünün inkişaf istiqamətini müəyyənləşdirdi. Atıq hər yerdə həyat sanki qaynayırdı. İnsanların həyat səviyyəsi yüksəlir, ailə büdcəsi möhkəmlənir, sosial rifahı təmin olunur, üstəlik mədəni-elmi həyatı da çiçəklənirdi. Bununla paralel olaraq, Azərbaycan idmançılarının da səs-sorağı, uğurları respublika hüdudlarını aşaraq Sovetlər Birliyinə, oradan isə dünya idmanının arenalarına gedib çıxırdı.**

İkinci dəfə Azərbaycan xalqının təkidi və tələbi ilə hakimiyyət kürsüsünə qayıdan ümummilli liderimiz ölkədəki xaotik vəziyyətdən, vətəndaş qarşıdurmasından çıxış yolunu qətiyyətlə müəyyən etdi. Bir-birinin ardınca qəbul etdiyi müdrik qərarlar, imza atdığı layihələr, verdiyi tövsiyələr qısa bir müddətdə Azərbaycanı inkişaf yoluna qaytardı. Onu parçalanmaqdan, iflasdan xilas etdi. Ulu Öndərimizin ölkənin inkişafına dair qəbul etdiyi iqtisadi proqram, ölkə nüfuzunun bərpası, dünya çapında qəbul edilməsi üçün müəyyənləşdirdiyi siyasi kurs özünün ilk addımlarındaca bu yolun nə qədər dəqiq və uzaqgörən olduğunu hər kəsə sübut etdi. Həyatımızın hər bir sahəsinə diqqət yetirən ümummilli liderimiz iqtisadiyyatla, siyasətlə yanaşı, mədəniyyətə də, idmana da xüsusi önəm verirdi. Məhz onun idaman olan qayğısının nəticəsidir ki, Ulu Öndərimizin layiqli varisi də Azərbaycanı idman ölkəsinə çevirdi. Xatırlatmaq yerinə düşər ki, ilk uğurlarımızı Ulu Öndərimizin diqqət və qayğısı ilə reallaşdıran Azərbaycan idmançıları ölkə Prezidenti cənab İlham Əliyevin və ölkəmizin vitse-prezidenti Mehriban xanım Əliyevanın mütəmadi diqqəti, xüsusi qayğısı nəticəsində Azərbaycana çoxlu sayda qızıl medallar, fəxri adlar, xüsusilə çempion titullar gətirdilər. Yəni idmanın ayrı-ayrı sahələrində Azərbaycan idmançılarının dövlət bayrağımızı tribunaların önündə çempion adının şərəfinə qaldırılmasına nail olması həmin diqqətin təntənəsidir.

*Sevindirici haldır ki, bu gün də xalqımızın yaddaşında əbədi həkk olunmuş Ulu Öndərimizin siyasi, iqtisadi, mədəni kursu uğurla davam etdirilir. Onun tövsiyələri hər kəs tərəfindən öyrənilir və həyata keçirilir. Həmin tövsiyə və qayğı isə möhtərəm prezidentimiz cənab İlham Əliyevin prosesləri nəzarətdə saxlaması nəticəsində öz bəhrəsini verir. İdmançılarımız müxtəlif sahələr üzrə - yüngül atletika, boks, güləş idman növləri, şərq təkmübarizlik idman növləri, üzgüçülük və digər sahələrdə keçirilən yarışların həm ev sahibliyini edirlər, həm də müxtəlif arenalarda qalib adlarını qazanırlar. İdmançılarımız arasında dünya, Avropa və Olimpiya çempionları var. Onların bəziləri bu şərəfli adı bir neçə dəfə qazanıblar və bizi həmişə sevindiriblər. Bunlar isə bizim sabaha olan inamımızı, gələcəyə olan güvəncimizi sübut edir. Axı, sağlam bədəndə sağlam ruh olur. Digər tərəfdən Azərbaycan idmanının çiçəklənməsi həm də siyasi müstəvidə bizim tanınmağımızın, sözümüzün kəsərli olmasının, həqiqətlərimizin qəbul edilməsinin bir vasitəsidir. Düşünürəm ki, Azərbaycan idmanının tarixində silinməz izi olan və bu izi öz diqqət və qayğısı ilə yazan Ulu Öndərimizin xatirəsi əbədi yaşayacaqdır. Onun doğum günü təkcə konkret bir tarixlə yox, həm də qazanılan hər bir qələbə ilə yaddaşlarda təzələnəcək, yaşayacaqdır.*

**Mən həyatımın Azərbaycan idmanı ilə bağlı dövrünün xülasəsini yaddaşımda təzələyəndə bir daha əmin oluram ki, Ümummilli Liderimiz xalqımızın tarixində dahilik zirvəsini fəth etmiş əbədi yaşamaq haqqını qazanmış bir şəxsiyyət, bir insandır. Onun bütün fəaliyyəti, bütün arzu və istəkləri ölkənin çiçəklənməsinə yönəldilmişdir və bu gün də həmin o arzu, istək cənab prezidentimizi İlham Əliyevin timsalında gerçəkləşir! Biz çiçəklənən, sosial, iqtisadi, mədəni, inkişafda olan Azərbaycanda yaşayırıq.**



**Ağacan ABİYEV,**
**professor, millət vəkili**